4.AA.Léontyev : « La langue, le discours. « Moscou 1969.p.144-145.
5.Ch.De Marez. F.Desmarchelier, D.Gonfei « Le précis d'orthogrphe. » 1990.p.104.
6.Christine Tagliante. « La classe de langue » CLE international. Paris 1994.p.36
7.Jacky Girardet, Jean-Marie Cridlig « Cahier d'exercices » p.101

**К ВОПРОСУ О ТРУДНОСТЯХ, ВСТРЕЧАЮЩИХСЯ ПРИ УСВОЕНИИ СТУДЕНТАМИ- АЗЕРБАЙДЖАНЦАМИ ГРАММАТИЧЕСКОГО МАТЕРИАЛА**

***Оруджова Ругийя***

***Резюме***

В статье анализируются трудности при усвоении грамматического материала студентами- азербайджанцами и предупреждении встречающихся препятствий, а также ошибок. Автор обращает внимание на то, что преподаватель, исправляя грамматические ошибки, должен опираться на имеющие базовые знания студентов.

Выполнение грамматические упражнений нацелено на углубленное усвоение категории времени глагола. В статье представлены таблицы по теме спряжение глаголов в прошедшем времени. Одновременно в ней приводится сравнительная характеристика грамматических определений и правил.

**THE QUESTION ON THE DIFFICULTIES OF AZERBAIJANI STUDENTS IN ASSIMILATING GRAMMAR MATERIALS**

***Orujova Rugayya***

***Summary***

This article analyzes the difficultées in assimilating the grammatical mistakes of Azerbaijani students. The author states that while the teacher correts the students' mistakes he/she should use the students' own help/

The explanation of teuse forms in the process of doing grammatical exercises is also reflected in the article.Table on the use of verbs in the past tense form is also given in the article.The grammatical rules given in the article are compared with the mother tongue.

***Rəyçi: Məhərrəm Orucov***
***Fransız dili kafedrasının 14 dekabr 2022-ci il tarixli iclasın 07 saylı protokolu***
***Daxil olma tarixi 16 dekabr 2022-ci il***

**UOT:373.**

**MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARA FİZİKİ TAPŞIRIQLARIN ÖYRƏDİLMƏSİ METODİKASI**

***Qazaxova Şahnaz Xəlilhacı qızı, Haqverdiyev İlqar Arif oğlu***
***Gəncə Dövlət Universiteti***
***Shahnaz_qazaxova@mail.ru***

**Xülasə:** *Məktəbəqədər yaşlı uşaqlara fiziki hərəkətlərin öyrədilməsi metodları üç qrupa bölünür : əyani, şifahi, praktik.*

*Əyanilik metodları fiziki tapşırıqların bilavasitə hiss edilməklə qəbul olunmasına əsaslanır.*

*Bütün metodiki prinsiplər bir-biri ilə sıx bağlıdır. Yalnız bütün prinsiplərdən istifadə etmək, fiziki tərbiyədə yüksək nəticələr əldə etməyə imkan yaradacaqdır.*

**Açar sözlər:**məktəbəqədər yaşlı uşaqlar, əyanilik metodları, iradi keyfiyyətlər, metodiki prinsiplər, fiziki hazırlıqlar

**Key words:** preschool children,vizualization methods, voluntary qualities, methodical principles, pyusical tasks

**Ключевые слова**:дети дошкольъного возраста, методы визуализации, доброволън качества, методическое принципы, физические задачи

Hərəkətverici vərdişlərin formalaşmasının effektivliyi əsasən təlim metodlarının düzgün tətbiq edilməsindən asılıdır. O,üsullardan ki, hansıların köməyi ilə hərəkətverici bacarıq və vərdişlər formalaşır.

Məktəbəqədər yaşlı uşaqlara fiziki hərəkətlərin öyrədilməsi metodları üç qrupa bölünür : əyani, şifahi və praktik ( əməli). Hərəkətverici vərdişlərin formalaşmasında metod qruplarının hər biri xüsusi əhəmiyyətə malikdir.

**Təlimin əyani metodları.** Əyanilik metodları fiziki tapşırıqların bilavasitə hiss edilməklə qəbul olunmasına əsaslanır və ondan uşaqlarda hərəkətləri görmə təsəvvürü oyatmaq üçün istifadə olunur.

Əyanilik metodları balaca uşaqların öyrədilməsində xüsusi yer tutur, bu onunla bağlıdır ki, məktəbəqədər yaş dövründə uşaqlarda yeni hərəkətverici vərdişlərin əsası qoyulur. Əyaniliyin vacibliyi uşaqların təfəkkür xüsusiyyətləri ilə də diktə olunur.

Əyanilik metodlarına aiddirlər: fiziki tapşırıların bilavasitə göstərilməsi, təqlid etmə - səni əhatə edən həyatdakı obrazları yamsılama,görmə və eşitmə orientirlərinin tətbiqinə kömək və əyani vəsaitlər ( şəkillər, rəsmlər, kinoqramlar, videonümayişlər).

**Fiziki tapşırıqların nümayişi.** Nümayiş zamanı ( təbii nümayiş) uşaqlarda görmə orqanları vasitəsi ilə fiziki tapşırıqları haqqında görmə təsəvvürü yaranır.

Uşaqlar yeni hərəkətlərlə tanış olduqları zaman, nümayiş bütün yaş qruplarında tətbiq oluna bilər.

Fiziki tapşırıqların nümayişinə müəyyən metodiki tələblər irəli sürülür. Onlar uşaqların yaş xüsusiyyətlərini nəzərə almaqla, müxtəlif mərhələlərdə təlimin konkret vəzifələrindən meydana çıxır. Hərəkətverici vərdişlərin formalaşmasının birinci mərhələsində uşaqlarda hərəkətlər haqqında tam düzgün görmə təsəvvürü yaratmaq və daha yaxşı yerinə yetirilmə üçün onları oyatmaq üçün, fiziki tapşırıqları yüksək texniki səviyyədə, var gücü ilə ( maksimal cəhdlərdə), normal tempdə, qeyd olunan yüngüllükdə nümayiş etdirmək lazımdır.

Nümayiş üçün əsas tələb tapşırığını dəqiq və düzgün yerinə tetirilməsidir. Pis nümayiş zamanı uşaqlarda hərəkət haqqında düzgün olmayan təsəvvür yaranacaqdır.

Geniş dairədə bacarıq və vərdişlərin əldə olunması üçün tədricən daha çətin hərəkətlərə malik olmaq vacibdir. Hərəkətverici bacarıq və vərdişlərin böyük ehtiyatı hərəkətverici fəaliyyətin yeni formalarının mənimsənilməsinə imkan yaradır. Müxtəlif hərəkətlərin mənimsənilməsi zamanı meydana çıxan çətinliklərin aradan qaldırılması nəticəsində hərəkətverici fəaliyyətin əlaqələndirmə və mükəmməlləşmə qabiliyyəti inkişaf edir.

Fiziki tərbiyə prosesində fiziki yükləmə tədriscən artmalıdır. Bu fiziki keyfiyyətlərin inkişafı üçün əhəmiyyətlidir. Daimi işə uyğunlaşma nəticəsində orqanizmin yüksələn imkanları yol verir ki, o həmin işin öhtəsindən daha qənaətlə, funksiyaların minimal gərginliyi ilə gəlsin. Yüklənməyə uyğunlaşma baş verir.

Yüklənmə adət halını aldıqdan sonra, o, orqanizmdə müsbət dəyişikliklər amili kimi fəaliyyət göstərə bilmir. Funksional imkanların sonrakı yüksəlməsini təmin etmək üçün, yüklənmələri sistematik yüksəldərək, onların həcmini və intensivliyini artırmaq lazımdır.

İradi keyfiyətlərin tərbiyə olunmasında da analoji qanunauyğunluqlar fəaliyyət göstərir.İradi keyfiyyətlər, bu keyfiyyətləri tələb edən fəaliyyətin nəticəsində inkişaf edir. Bu halda iradi təzahürün dərəcəsi psixoloji çətinliklərin aradan qaldırılmasının həcminə bərabərdir. İradənin tərbiyə olunması, fiziki yüklənmələr və xüsusi tapşırıq vasitəsi ilə meydana gələn, tədriclə artan çətinlikləri aradan qaldırmadan mümkün deyil.

Tələbələrin tərəqqisi, yeni tapşırıqların və onunla bağlı olan yüklənmələrin, məşğul olanların gücü çatan qədər olduqda, orqanizmin funksional imkanlarını ötüb keçmədikdə, yaş cinsi və fərdi xüsusiyyətlərə uyğun gəldikdə, müsbət nəticələrə gətirib çıxardacaqdır. Məşğələlərin müntəzəmliyi, ardıcıllığı və yüklənmələrin istirahətlə optimal əvəz olunması da vacib şərtlərdəndir.

**Metodiki prinsiplərin qarşılıqlı əlaqəsi.** Bütün metodiki prinsiplər bir-biri ilə sıx bağlıdır. Yalnız bütün prinsiplərdən istifadə etmək, fiziki tərbiyədə yüksək nəticələr əldə etməyə imkan yaradacaqdır.

Tapşırıqlar dəfələrlə nümayiş olunur. Bununla əlaqədar olaraq nümayişin xarakteri dəyişir. Əgər başlanğıcda nümayiş tapşırıq haqqında ümumi görmə təsəvvürü yaratmaqdırsa, sonra isə hərəkət texnikasının ayrı-ayrı elementlərini dəqiqləşdirməkdir. Tapşırıq tam, lakin yavaş tempdə nümayiş etdirilən zaman uşaqların diqqətini texnikanın bu və ya digər elementi cəlb edir. Məsələn, uzağa tullanmada, əvvəlcə diqqət çıxış vəziyyətinə yönəlir, sonra isə təkana və tullanmağa.

Nümayişdən əvvəl, uşaqlara nəyi müşayiət etməyi göstərmək lazımdır. Tapşırığın mənimsəmə dərəcəsinə görə, texnikanın o elementləri nümayiş edilir ki, hansılara ki, bu dərsdə diqqət yetirilir.

Uşaqlarda fiziki tapşırılar haqqında düzgün və əzələ - hərəkətverici təsəvvürlərin yarandığı vaxtda, xüsusilə hərəkətverici vərdişlərin möhkəmləndirilməsində nümayişdə sui istifadə etmək olmaz, bu onların mexaniki təkrarlanmasına gətirib çıxardır. Fiziki tapşırı obrazlı nümayiş etdirərək, sonra verilən hərəkətin sözlə obrazını yaradıb və bununla uşağın təfəkkürünü aktivləşdirmək məqsədəuyğundur.

Fiziki tapşırıqların nümaiyişinə müəllim cıddi hazırlaşır. İlk əvvəl uyğun gələn şəraiti yaratmaq, müşahidə etmək üçün uşaqları təşkil etmək lazımdır. Bəzi uşaqların nümunəvi yerinə yetirilməsi üçün xüsusi şərait tələb olunur: uzağa tullamaq üçün lazımi qədər sahə lazımdır; zal şəraitində qaçaraq hündürlüyə və uzununa tullanmaq üçün gimnastik döşəklər, rezin cığırlar, açıq havada isə qumla doldurulmuş xəndək olmalıdır.

Fiziki tapşırıqların nümayiş etdiriləcəyi yeri elə seçmək lazımdır ki, uşaqların hamısı üçün görünən olsun. Məsələn, ümumiinkişaf hərəkətlərini yüksək yerdə, qrupdan bir qədər kənarda nümayiş etdirmək məqsədəuyğundur.

Fiziki tapşırıqları nümayiş etdirərəkən tərbiyəçi uşaqlara münasibətdə müxtəlif vəziyyətlərdə ola bilərlər.(üzü, arxası,yanı uşaqlara tərəf). Ümumiinkişaf hərəkətlərin üzü uşaqlara tərəf vəziyyətində nümayişində “güzgüvari” nümayişdən istifadə olunur, məsələn, əgər uşaq2lar sola tərəf əyilirsə, əyilmə sağa tərəf yerinə yetirilir.

Dairədə düzülərkən tərbiyəçi yerini uşaqların yanında tutmalıdır.Əgər tərbiyəçi tapşırığı tək cərgədə yeriş zamanı nümayiş etdirirsə, onda o uşaqlara qarşı gəlməlidir.

Düz qamətlə oturuşu, gövdəni qabağa və arxaya əyməni uşaqlara yanakı vəziyyətdə duraraq göstərirlər. Əllərin bel və baş arxasındakı vəziyyətlərlə olan tapşırıqları sağa,sola və hərlənərək dönmələri arxası uşaqlara tərəf vəziyyətdə nümayiş etdirmək məqsədəuyğundur.

Daha çətin tapşırıqları ( tullanmalar,atmalar və s.), gövdənin, əllərin və ayaqların vəziyyəti haqqında düzgün təsəvvür yaratmaq üçün, müxtəlif müstəvidə göstərmək lazımdır.

Fiziki tapşırıqların uşaqlar tərəfindən daha effektiv qəbul olunması üçün onları düzgün qurub yerləşdirmək lazımdır. Əgər tapşırıqlar bağlı cərgə qarşısında nümayiş etdirilirsə, onda boyu balaca uşaqlar cərgənin əvvəlində durmalıdırlar.

Fiziki tapşırıqların effektiv nümayişi uşaqların diqqətlilik aktivliyindən asılıdır. Tərbiyəçi uşaqlarda fiziki tapşırığın verilən növünə maraq oyadır və nümayişdən əvvəl diqqətin nəyə ayrılmasını qeyd edir. İlkin göstərişlər aktiv, məqsədəuyğun dərk etmə üçün şərait yaradır və dəqiq görmə təsəvvürünün yaranmasını təmin edir.

Uşaqların tapşırıqları əsasən mənimsədikləri zaman onlara yoldaşlarının yerinə yetirdikləri hərəkətləri müşahidə etmək və səhvlərini qeyd etmək tapşırığı vermək çox xeyirlidir. Bu zaman hər bir uşağa kimin mşahidə edəcəyi göstərilir.

Fiziki tapşırıqların nümayişinə uşaqları da cəlb etmək lazımdır. Uşaqların düzgün nümayişi, başqaları üçün nümunə kimi xidmət edir,öyrənilən tapşırığa qarşı maraq oyadır, əminlik yaradır, özlərini tapşırıqları necə daha yaxşı yerinə yetirmələri üçün təşəbbüsləndirir.

Bundan başqa uşaqlar  üçün tapşırıqları uşaqlar nümayiş eləyirsə : öz yaşıdlarının fiziki hərəkətləri yerinə yetirdikləri zaman bədənin ayrı-ayrı hissələrinin vəziyyətini daha yaxşı görmək üçün uşağın kiçik həcmli görmə qabiliyyəti olmalıdır.

Fiziki tərbiyə vasitələrinin tərbiyəsinin boy ölçülərinə uyğun gəlmədiyindən o tapşırıqları yerinə yetirə bilmir və bu zaman uşaq nümayişindən istifadə olunur, məsələn: gimnastik divarda hərəkətlər, kəndir altından keçmə, gimnastika halqasına daxil olma, gimnastika ağacları üzərindən addımlama və başqaları.

Əgər tərbiyəçi özü sağlamlıq və ya fiziki hazırlıq baxımından daha çətin tapşırıqları nümayiş eləyə bilmirsə (dərinliyə tullanma, uzununa tullanma, qaçaraq hündürlüyə tullanma və s.) fiziki tapşırıqların nümayişi üçün yenə uşaqlar cəlb olunurlar.

Əgər tərbiyəçiyə hərəkəti eyni zamanda göstərib və başa salmaq çətin və narahat olursa, həmçinin fiziki tapşırıqların  texnikasının ayrı-ayrı elementlərinin spesifikliyini uşaqlar üzərində göstərmə daha asan olduğu üçün, o bunu uşaqların hamısının özləri etmələrini təklif edir.

Təqlid. Təqlid-heyvanların, quşların, həşəratların hərəkətlərini, təbiət hadisələrini və ictimai həyatı yamsılamaq, məktəbəqədər yaşlı uşaqlara fizika tapşırıqları öyrədərkən  böyük yer tutur. Məlumdur ki, bu yaşda uşaqlara, onlara söylənənləri, oxuduqlarını, gördüklərini təqlid etmək, yamsılamaq xas olan xüsusiyyətdir.

Dovşanı, siçanı və başqa canlıları yamsılayaraq, uşaqlar böyük həvəs və çalışqanlıqla fiziki tapşırıqları yerinə yetirirlər. Yüklənmənin artması öz növbəsində hərəkətverici vərdişin möhkəmlənməsində, fiziki keyfiyyətlərin tərbiyələnməsində, uşağın fiziki inkişafında yaxşı nəticələrin əldə olunmasına səbəb olur.

***Ədəbiyyat***

1.Həsənov A.M. Məktəbəqədər Bakı, Maarif 1977
2. Əliyeva Ş. Məktəbəqədər Pedaqogika., Bakı, ADPU, 2010.
3.Mursaqolova R., Rüstəmova N., Məktəbəqədər pedaqogika., Bakı, ADPU, 2012.
4. Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı., Bakı, 1998.
5. Qurbanov N.N., Bağırov S.S. Məktəbəqədər yaşlı uşaqların fiziki tərbiyəsi.

## METHODOLOGY OF TEASHİNG PRSCHOOL CHİLDREN PHYSİCAL TASKS

***Gazaxova Shahnaz Xalilhaci, Hagverdiyev Ilgar Arif***

***Summary***

The methods of teashing physical movements of preschool shildren are divided into three groups: visual and verbal practical.

Visualization methods are based on direct perception of physical tasks.All methodical principles are closely related to each other.

Only using all the principles will make it possible to achieve high results in physical education.

## МЕТОДИКА ОБУЧЕНИЯ ДЕТЕЙ ДОШКОЛЪНОГО ВОЗРАСТА ФИЗИЧЕСКИМ УПРАЖНЕНИЯМ

***Газахова Шахназ Халилхаджи кызы, Хагвердийев Ильгар Ариф Оглы***

***Резюме***

Методы обучения фтзическим движениям дошколъников делятся ра три группы : наглядные и словеснопрактические.

Методы визуализации основаны на непосредственном восприятии физических задач.Все методические принципы тесно связаны друг с другом.

Толъко исползование всех принципов позволит добитъся высоких резултатов в физическом воспитании.

***Rəyçi: b/m. İ.Haqverdiyev***
***Bədən tərbiyə və İdman kafedrasının 17 noyabr 2022-ci il tarixli iclsın 03 saylı protokolu***
***Daxil olma tarixi 23 noyabr 2022-ci il***

**UOT:355.**

## MÜASİR MƏRHƏLƏDƏ GƏNCLƏRİN HƏRBİ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİN TƏŞKİLİ

***Məmmədova Mahnur Qafar qızı, Məmmədov Şahmar Rüstəm oğlu,***
***Əmiraslanov Sərxan Nail oğlu***
***Gəncə Dövlət Universiteti***

**Xülasə:** *Dövlət gənclər siyasətinin ən mühüm istiqamətlərindən biri kimi ölkəmizdə gənc nəslin vətənpərvər ruhda tərbiyəsi daim diqqət mərkəzindədir. Gənclərdə vətənpərvərlik hisslərinin gücləndirilməsi, hərbi-idman oyunlarının kütləviliyinin artırılması istiqamətində davamlı tədbirlər həyata keçirilir. Gənclərin Hərbi vətənpərvərlik tərbiyəsi ordu sıralarında hərbi xidmətə çağırış öncəsi hazırlığı təmin etməyə yönəlmişdir və onların vətənpərvərlik tərbiyəsində onun özünəməxsus yeri vardır.*

*Vətənpərvərliyin ali təzahürü xalq kütlələrinin cəmiyyət quruluşu məqsədyönlü fəaliyyəti, Vətənin müdafiəsi yolunda fədakar əməyindən ibarətdir. Ölkə qarşısında duran vəzifələrin yerinə yetirilməsi sahəsində əsas şərt xalq kütlələrinin hərbi vətənpərvərlik tərbiyəsinin, onların vətənin müdafiəsinə hazırlığından ibarətdir.*